# BİR ARİF VARDI...



Müasir poeziyamızın görkəmli nümayəndələrindən biri, AYB-nın Xəzər bölməsinin sədri, gözəl şair təbi, söz ustalığı ilə seçilən, xalq tərəfindən sevilən şair qardaşımız Arif Buzovnalının dünyadan köçməsi, doğrudan da ağır itki oldu. Bu xəbəri eşidəndə inanmasam da, sosial şəbəkələrdə paylaşılan nekroloqlar məni sarsıtdı. Səhifələr Arifin şəkilləri ilə dolmuşdu. Həyatının müxtəlif anlarını tarixləşdirən bu şəkillərə baxdıqca onunla bağlı xatirələr bir-bir gözüm önündən gəlib keçdi...

Yadımdadır, 1994-cü ildə yaratdığımız "Füzuli ədəbi məclisi"nə iki gənc şair gəlirdi: Arif və Cəsur. Hər ikisi gözəl yazırdı və diqqəti çəkirdi. Şairlikdən başqa bir dostluğumuz da vardı. İstər məclisdə, istərsə də müxtəlif tədbirlərdə duzlu zarafatları iləbizi güldürərdi. Elə indi də ondan danışanda, üzümdə bir təbəssüm yaranır. Məclisdən çıxanda metroya düşər, yolboyu söhbət edərdik. Arif, Cəsur, Ayaz, Şövkət, Şəfa, Mahmənzər və b. bəzən mübahisələrimiz da olurdu. Həm poeziya ilə bağlı, həm də müxtəlif növzularda. "Vahid" poeziya evində tədbirlərdə görüşərdik. Tədbir bitəndə ayrılmaq istəməzdik, bəzən metronun "Bakı soveti" stansiyasına düşər, bəzən də dəniz kənarı ilə piyada gəzə-gəzə şeir deyər, Sahil metrosuna gələrdik...

Evimizdə hər ayın 19-da bir elmi-ədəbi məclis keçirirdim. Məclisin bütün yığıncaqlarına gələrdi. Ümumiyyətlə, harda poeziya ilə bağlı məclis olurdusa, Arif orda olurdu. Əlyazmalar İnstitutunda da, Azərbaycan Yazıçılar Birliyində də keçirdiyim bütün tədbirlərdə iştirak edərdi. Yubiley tədbirlərinə həmişə yeni şeirlə gələrdi. Ümumiyyətlə, məclislərdə dostlara şeir ithaf etmək, dostların şeirlərinə nəzirə yazmaq və ya onları təxmis etmək bir ədəb halındaydı. Arifin də bir sıra şairlərə ithaf etdiyi şeirləri, eyni zamanda şair dostlarının ona ithaf olunan şeirləri vardır. Bir dəfə Arif mənə bir "Kaspi" qəzeti verdi. "Aç qapını, gəlim, dünya" adı ilk şeirlər kitabımda eyniadlı şeirə bir şeir yazmışdı:

### AÇ QAPINI GƏLİM DÜNYA

Məni çağırmadın, mən özüm gəldim.
Təkliyim, dincliyim məni gətirdi.
Yanına xoşluqla gəlməzdi heç kim,
Mənimçün nə fərqi ikisi də birdi.

Yanına gəlməzdim boş danışıqçün,
Fəqət gələndə də dinməmək olmaz.
Deməmək də olar, demək də mümkün,
Mənimçün asandı deyib danışmaq.
Sözlərim utanır, sıxılır bir az.

Darıxdım təklikdən, gecə ay da yox,
Günəş də əl çatmaz sabahda idi.
Hər gecə günəşsiz, sabah da ki çox,
Yanına lap çoxdan gələ bilərdim,
İndi çatmışamsa gəlmişəm indi.

Yaman heyrətlisən, zərif bir ahu,
Amansız ovçunun toruna düşüb.
Qaçan bu, qovan o, bu o, o da bu-
"Bu"lar ayrı düşüb "o"lar görüşüb.

Gəlməkçün gəlmişəm, necə qayıdım?
Minmək bir eyibdi, düşmək bir eyib.
Yatıb gələnləri necə oyadım?
Onlar da gələndə "oyağam" deyib.

Açıq qapıların sayı bilinmir,
Küləklə bağlanıb bağlı qapılar.
Açılmış qapılar bağlanar bir-bir,
O vaxt ki, bağlını açan tapılar.

Arifin ilk şeirlər şitabı çap olunanda mən də haqqında "Ömrün ötən anları"nı vərəqlərkən" adlı kiçik bir məqalə yazmışdım. Həmin yazını burada verirəm: "Klassik şeirimiz daim coşan, hayqıran bir dənizə bənzəyir ki, ona ancaq güclü sənətkarlar baş vura bilir. Yalnız onun şirin-şəkər məhəbbət nəşəsini, acı hicran şərbətini, işıqlı "gecə"sini, qaranlıq "gündüz"ünü, yoxluqda doğulan varını, varlıqda boğulub yox olan yarını tapanlar güclü sənətkar olurlar.

Arif Buzovnalının "Ömrün ötən anları" kitabını vərəqlərkən, fikrim bir anlıq yenə də Hacı Mailin sədrliyi ilə keçən "Füzuli" ədəbi məclisinin, bəzən Füzuli sehrinə, Hacı Mail nüfuzuna bələnən sükutuna, bəzən isə yerli-yersiz iradlardan uğuldayan hay-küylü, duzlu-məzəli, replikalı uğultusuna cumdu, kitabdakı hər şeirlə bağlı bir əhvalat yada düşdü, gözüm qarşısında müxt?lif epizodlar kino lenti kimi g?lib keçdi...

Yadımdadır, məclisdə ən çox "döyülən " şair Arif olurdu. Həmişə Mail müəllimə iradımı bildirəndə, cavabında deyərdi: "Arifi ona görə çox tənqid edirəm ki, o şairdir. Mən ondan çox şey gözləyirəm". Bu, Arif üçün ən böyük etimad idi və Arif bu etimadı doğrultdu. Bu kitab isə təsdiq üçün həqiqi sənəd idi.

Əruz vəznli ədəbiyyatımızın bütün nümayəndələri kimi Arifin yaradıcılığında da əsas yeri qəzəllər tutur. Bu qəzəllər sadəcə təqlid xarakteri daşımır. Arifin qəzəli oxunarkən, təxəllüs göstərilən məqtə beytinə çatmamış, bilinir ki, bu Arifin qəzəlidir:

Aləmin sənsən pənahı, yoxdu Sən Səndən səva.
Ey mənə məndən yaxın, ey məndə mən məndən səva.

Kuyinə yetməkdir arzum, istəməm bir özgə yer,
Xoş olurmu bülbulə bir guşə gülşəndən səva?

Canfədayam, ey Xuda, ruəum vüsalın gözləyir,
Dəhrə aid yoxdu bir şey məndə bu təndən səva,

Ey cəhanın sahibi, ey insü cinnin sərvəri,
Hökmünə şəkk eyləməz bir kimsə, düşməndən səva.

Tab edir zülmə fəna mülkündə Arif, çün bilir
Bir ədalət məskənin vardır, bu məskəndən səva.

Arifin qəzəlləri bir də ona görə fərqlənir ki, çox vaxt şeirə gətirilməyən, işlənməyən sözlərə, ibarələrə müraciət edir. Bu isə şeirə incə yumor gətirməklə, həm də orijinal səslənir:

Cəhənnəmləşdirilmişlərdənik, yoxdur günah bizdə,
Beli xəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Fəğan etsək belə, pərvərdigarə naləmiz yetməz,
Səsi bəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Keçirsə, ömrümüz qan tökmək ilə fani dünyadə,
Bura cəmləşdirilmişlərdənik, yoxdur günah bizdə.

Arif Buzovnalı üçün vəzn yoxdur. əruz vəznində qəzəl, qitə, müstəzad, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, tərcibənd, tərkibbənd, təxmis və s. yazdığı kimi, heca vəznində də qoşma, gəraylı, təcnis və s. janrlarda qələmini sınamış və gözəl şeir nümunələri yaratmışdır. Arif hətta sərbəst şeirlərində də öz arifliyini, sənətkarlığını sübut edir:

Hər yerdə, hər tərəfdə və hər bir qarışda qan,
Hər xətdə, rəngdə, ilmədə, min-min naxışda qan.

Hər sözdə, hər əməldə və hər bir baxışda qan.
Dünya dedikləri belə dünya imiş demə.

Arif Buzovnalının heca vəznində yazdığı şeirlərində də klassiklərdən gələn bir xətt, bir iz görünür:

Qurbanı olduğum, ey bilib qanan,
Doğru söz insanın ədalətidir.
Vicdan təmizliyi hər yarananın
Müqəddəs varlığa itaətidir.

Göstərilən misallardan aydın olur ki, Arif Buzovnalı istər klassik şeirimizin, istərsə də müasir şeirin bütün forma və janrlarında qələmini sınamış, istədiyinə müvəffəq olmuşdur. Biz inanırıq ki, o, bu günümüzdən sabaha gedən yolu tapan və bu yolda düzgün istiqamət götürən şairlər içərisində özünə mövqe qazanmışdır. Biz isə ona bu yolda uğurlar arzulayırıq".

Bu gün Arif Buzovnalı aramızda yoxdur, amma sanki varmış kimi hiss edirik. Dekabrın 28-də Buzovnada Əli qədəmgahında Arifin 40 mərasimi olacaq. İstədim Ariflə bağlı bir şeir səhifəsi hazırlayım, Hacı Soltandan xahiş etdim ki, Arifin vəfatı ilə bağlı şeirlər varsa, mənə göndərsin. Sağ olsun, özünün və Ağasəlimin şeirini göndərdi. Arifin 3 mərasimində Gülarə xanım da şeir yazdığını söylədi. Həmin şeirləri oxuculara təqdim edirəm:

### Şair Arif Buzovnalıya İthaf

Əşarı gözəl, dahi qəzəlxan Hacı Arif.
Hər kəlməsi yüz tərifə şayan Hacı Arif.

Yer əhli üçün göydən alıb kənzi-xəfanı
Dünyanı edib fəhminə heyran Hacı Arif.

Ta sübhə kimi əldə qələm olmadı aram,
Zülmət gecəni etdi çıraqban Hacı Arif.

Hər gəncə ədəb dərsi verib eylədi agah,
Tədris elədi onlara ürfan Hacı Arif.

Bir ömr nə çox kimsəni qəflətdən oyatdı
Ta zahir ola hikməti-Yəzdan, Hacı Arif.

"Arif dəxi yoxdur", demə sən, ey dili-qafil,
Şövq ilə olub Xaliqə mehman Hacı Arif.

Sidq ilə söz açdı o şəhənşahi-Nəcəfdən,
Mədhində onun bülbüli-nalan Hacı Arif.

Zəhra qəmini faş elədi aləmə, əhsən,
Oldu bu müsibətdə əzaxan Hacı Arif.

O Kərbübəla şahinə aşiqdi əzəldən,
Hər mahi-Mühərrəmdə nəvaxan Hacı Arif.

Qan ağladı hər dərdinə hal əhli dəmadəm,
Yox ayrılığın dərdinə dərman, Hacı Arif.

Sevdiklərinin qəlbinə həsrət dağı çəkdin,
Qoydun bizi sən gözləri giryan, Hacı Arif.

Hicrində bu Soltan eləyir naləvü əfğan,
Yandırdı onu möhnəti-hicran, Hacı Arif.

***Axund Hacı Soltan Əlizadə***
***01.12.2025***

### Haci Arif Buzovnalinin xatirasina

Xərc edir Arif sözü, sərraf olan zərgər kimi,
Kəlməsində dürr-cəvahir parlayir gövhər kimi.

Qil nəzər, ey nəzm edən sözdən saraylar var olub,
Hər tagında bərq vurur söz incisi zivər kimi.

Cəzb edir aqilləri söz gulşəni, mənaya bax,
Cəzb edər aləmin, ol tutini səkkər kimi?

Verməsə məna sözə bənzər təravətsiz gülə,
Sanki sözdən səf düzüb qalib gələn əğyar kimi.

Gah yazar bir öylə söz, ruhun vücuda türk edər,
Gah da düşmən bağrına söz sancılar xəncər kimi.

Etmə israf sərvəti, sözlə tutiyadır sal nəzər,
Dinləyən qoy məst ola hər kəlmədən ənbər kimi.

Ey Xuda, səndən mədəd, ver Munisə söz mücrüsün,
Ki, səpə Arif sayaq irfan sözü Kövsər kimi.

*22.11.2025*

### HACI ARİF BUZOVNALININ ƏZİZ XATİRƏSİNƏ

Hacı, saldıq yola son mənzilə rəhmətlə səni,
Aldı ağuşə vətən torpağı izzətlə səni.

Bir ömür eylədin ünvan Şəhi-mərdan qapısın,
Tanrı məhşur eləsin Şahi-vilayətlə səni.

Yurd üçün canını yaxdın oda pərvanə kimi,
Xəlq xatırlayacaq odlu məhəbbətlə səni.

Sən gəzirdin Xəzərin sahilini, döndü zaman,
Gəzir indi Xəzərin sahili həsrətlə səni.

Can verərdi sənə sevdası dəmadəm Bakının,
Ulu tarixinə səbt eylədi hörmətlə səni.

Mailin ətrini məclisdə alardıq səndən,
Hər görən ləhzə o saf, ülvi təbiətlə səni.

Eşq ilə çağladı köksündəki hikmət bulağı,
Mə`rifət təşnələri dinlədi diqqətlə səni.

Şairin rütbəsi, keyfiyyəti sözdən bilinər,
Tanıdıq nitqü bəyanındakı hikmətlə səni.

Köçmüsən qəlbinə zövq əhlinin əş`arın ilə,
Oxuyur cümləsi bəh-bəhlə, fəxarətlə səni.

Bu bəlakeşlərə həmdərd olan Arif sən idin,
Sevəcək millətin əvvəlki hərarətlə səni.

Misli yox bir qələm əhlində yaratdıqlarının,
Yaradan zirvəyə qaldırdı bu sən`ətlə səni!

Ömriyəm, qəbrini bildim ocaq, oldum zayir,
Gəlmişəm nitqə bu ruhani ziyarətlə səni.

***Acasəlim ƏMRİ***
***03.12.2025***
***VƏTƏN ədəbi məclisi***

Yəqin ki, Hacı Arif haqqında bundan sonra çoxlu şeirlər yazılacaq.

Allah qardaşımıza rəhmət eləsin, ruhu şad olsun.

**SONA XƏYAL**